# Dərs yaradıcılıq tələb edir

**Yaqut ƏZİMZADƏ,**
*Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət Gimnaziyasının ibtidai sinif müəllimi*



Müasir dərs müəllimdən yaradıcılıq axtarışları tələb edir. Çünki məhz yaradıcı axtarışlar nəticəsində müəllim hər bir dərsini standartdan uzaq, maraqlı və səmərəli qura bilir. Hər bir dərsin yaradıcı olması, şagirdləri maraqlandırması üçünsə müəllim özü daim axtarışda olmalı, yenilikləri izləməli, fəal-interaktiv təlim metodlarını yaxşı bilməli, onlardan mövzunun tələblərinə və sinfin, şagirdlərin səviyyəsinə uyğun istifadə etməlidir. Bunun üçün hər bir müəllim öz üzərində müntəzəm işləməlidir.

Hazırda IV sinifdə dərs deyirəm. Şagirdləri maraqlandırmaq üçün elektron dərslərdən geniş istifadə edir, ilk növbədə fənni şagirdlərə sevdirməyə çalışıram. Aparacağım hər bur dərsin geniş icmal-planını hazırlayıram. İcmalı elə tərtib edirəm ki, dərsin hər bir mərhələsi şagirdləri maraqlandırsın.

Şagirdlərin təfəkkürünü inkişaf etdirməklə yanaşı, söz ehtiyatlarını artırmaq da gündəlik iş planıma aiddir. Onlarda qəzet və jurnallardan istifadə etmək, nağıl və hekayələrə münasibət bildirmək bacarığını formalaşdırmağa çalışıram. Bu məqsədlə açıq suallardan daha çox istifadə edirəm. Burada məqsəd şagirdlərə müstəqil fikir yürütmək, nəticə çıxarmaq bacarıqları aşılamaqdır.

Azərbaycan dili dərslərində leksik oyunlardan istifadə şagirdləri fəallaşdırmaq və onların söz ehtiyatını artırmaqda daha səmərəli nəticə verir. Rabitəli nitqin inkişafına xüsusi diqqət yetirirəm.

Hər bir mövzunu keçərkən onun təlim məqsədi ilə yanaşı tərbiyəvi əhəmiyyətini də diqqətdə saxlayıram. Çalışıram ki, keçdiyim hər bir mövzu şagirdləri milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə etsin.

Şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirmək üçün bir çox düşündürücü çalışmaların icrasına geniş yer verirəm. Bütün bunlarla yanaşı, bir çox didaktik materiallar, testlər, krossvordlar, məntiqi çalışmalar hazırlayaraq dərsin müxtəlif mərhələlərində tətbiq edirəm.

Fikrimi IV sinifdə sınaqdan keçirdiyim kiçik bir təcrübə ilə əsaslandırmaq istəyirəm. Həyat bilgisi dərsində uşaqlara belə bir sualla müraciət edirəm:

- Uşaqlar, sizi hansı mövzular daha çox maraqlandırır?

Şagirdlər müxtəlif mövzular təklif edirlər. Onları lövhəyə yazıram.

Seçilmiş mövzulardan biri, məsələn, "Bakı" mövzusu üzərində iş aparıram.

Öncə şagirdləri üç qrupa bölərək hər qrupa aşağıdakı istiqamətdə tapşırıqlar verirəm:

I qrup:

Bakı haqqında məlumat toplayın.

II qrup:

Bakının memarlıq abidələri haqqında bildiklərinizi yazın.

III qrup:

Bakı nefti haqqında məlumat toplayın.

Eyni zamanda toplanacaq materialların şəkillərdən ibarət olmasını, onların prosesin ardıcıllığı istiqamətində qruplaşdırılaraq təqdim edilməsini tapşırıram.

Qruplar İKT-dən istifadə etməklə tapşırıqları yerinə yetirirlər.

İş prosesində hər qrupun hazırladığı cavablar əsasında paytaxtımız haqqında zəruri informasiya yükü olan mətn yaranır: Bakı Azərbaycanın paytaxtıdır. Bakı Xəzər dənizinin sahilində yerləşir. Bakı memarlıq abidələri ilə məşhurdur. Bakıda Qız Qalası, Şirvanşahlar Sarayı, qədim memarlıq abidələri, məscidlər, hamamlar var. Bakıda neft quruda və dənizdə çıxarılır. Neft bizim ən böyük sərvətimizdir. Neft emal olunur və ondan müxtəlif məhsullar alınır. Neft ölkəmizin "qara qızılı" da adlanır.

Şagirdlər tapşırıqlar əsasında işləyərkən ilk növbədə İKT-dən istifadə bacarıqları nümayiş etdirirlər.

Bütün bunlar şagirdlərin axtarıcılıq qabiliyyətini inkişaf etdirir, onların lüğət ehtiyatını artırır.